ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1029

# ƏSAS VƏ DÖVRİYYƏ FONDLARININ MÖVCUD VƏZİYYƏTİ VƏ ONDAN İSTİFADƏNİN İQTİSADİ SƏMƏRƏLİLİYİ

Ləman Rafiq qızı Allahverdiyeva

**XÜLASƏ**

**Tədqiqatın məqsədi –** İstehsal prosesinin təməli və qida sənayesi müəssisələrinin maddi-texniki bazasının əsası olan əsas vəsaitlər, onların strukturu və dinamikası, əsas və dövriyyə vəsaitlərindən istifadənin intensivliyi və səmərəliliyinin ümumi göstəricilərini tədqiq etməkdir.

**Tədqiqatın metodologiyası –**Tədqiqat prosesində sistemli yanaşma, müqayisə, iqtisadi – statistik təhlil metodlarından istifadə edilmişdir. Eyni zamanda, müəssisədən əldə olunan göstəricilər əsasında müqayisələr aparılmışdır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti –** Azərbaycanda qida sənayesinin inkişafı, onun iqtisadiyyatın gəlirli sektoruna çevrilməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas amildir və bu inkişaf dövlətin bütün iqtisadi sisteminin maraqlarına təsir edir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında qida sənayesi müəssisələrinin səmərəli fəaliyyəti üçün istehsal potensialından səmərəli istifadə böyük əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticələri –** Müəllif əsas vəsaitlərin təmin olunma göstəriciləri və onlardan səmərəli istifadə üçün bir sıra hesablamalar aparmışdır ki, bu da onların səmərəliliyinin etibarlı qiymətləndirilməsinə imkan verir. Tədqiqatda əsas vəsaitlərlə yanaşı dövriyyə vəsaitləri, onların əhəmiyyəti, tərkibi və strukturunun təhlili də aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi –** Tədqiqat işində qida sənayesi müəssisələrində əsas və dövriyyə vəsaitlərinin istifadəsinin səmərəliliyinin artırılmasının vacibliyi əsaslandırılaraq müvafiq nəticələr çıxarılmış və gələcək inkişafla bağlı tövsiyələr verilmişdir.

**Açar sözlər:** əsas vəsaitlər, fondverimi, fondtutumu, dövriyyə vəsaitləri, iqtisadi səmərəlilik.

## Giriş.

İqtisadçılar tərəfindən aparılan tədqiqatlara görə əsas vəsaitlərin mövcudluğu uğurlu əməliyyatın açarıdır, çünki onlar etibarlı və sabit istehsalı təşkil etməklə işçilərin təhlükəsizliyini təmin edə bilər. Müəssisənin gəlirliliyi, eləcə də məhsulların miqdarı və keyfiyyəti əsas vəsaitlərin həcmindən, onların texnoloji vəziyyətindən, yenilənməsindən və təkmilləşdirilməsindən, istifadə dərəcəsindən və effektivliyindən asılıdır (8). Onlara sahib olmaqla müəssisə həm əməliyyat qabiliyyətini, etibarlılığını və müstəqilliyini təmin edə bilər, həm də hər zaman əsas vəsaitlərin səmərəliliyini diqqətdə saxlamaqla davamlı fəaliyyət göstərər. Əsas istehsal fondlarından səmərəli istifadə olunmasına yeni texnika və texnologiyanın istehsala tətbiqi, muəssisənin texnoloji tələbatına uyğun miqdarda maşın və avadanlıqlarla təmin olunması, istehsal gucundən daha dolğun istifadə olunması musbət təsir gostərir.

Əsas vəsaitlərin effektiv idarə olunması həm müəssisənin texniki, iqtisadi və maliyyə göstəricilərini yaxşılaşdıra (Мосин и Щербаков, 1998 ), həm də satışı və mənfəəti artıra bilər, eyni zamanda xərcləri də azalda bilər (Бланк, 2008). Eyni zamanda kifayət qədər əsas vəsaitilə müəssisə yeni məhsullar təqdim edə, istehsal həcmini artıra və əməliyyatlarını genişləndirə bilər.

Dövriyyə vəsaitləri isə həm maddi, həm də pul resurslarını əhatə etdiyindən, onların təşkili və effektiv istifadəsi təkcə maddi istehsal prosesini deyil, həm də müəssisələrin maliyyə sabitliyini müəyyən edir. Müəssisənin effektiv idarə olunması vəsaitlərin, xüsusən də dövriyyə kapitalının optimal istifadəsini əhatə edir.

**Materiallar və metodlar.** Hazır məhsulların istehsalı birbaşa yüksək texnologiyalı, yüksək keyfiyyətli avadanlıqların istifadəsindən asılıdır.

---

Əsas müəllif/Corresponding author: Ləman Rafiq qızı Allahverdiyeva, ADAU, doktorant, e-mail: ilaxh@mail.ru, Tel: (050) 4903714

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1029

Bu fakt əsas vəsaitlərin hərtərəfli öyrənilməsini və təhlilini zəruri edir. Müəssisənin əsas fondlarla təmin olunmasının təhlili zamanı müəssisənin əsas fondlarla lazımi səviyyədə təminatı, əsas fondların dinamikası, tərkibi, quruluşu, texniki səviyyəsi, istehsalın və onun təşkili səviyyəsi oyrənilməlidir.

"Sumqayıt-Çörək" ATSC ənənəvi çörək bişirmə texnologiyalarını müasir istehsal üsulları ilə birləşdirərək əhaliyə keyfiyyətli və sağlam çörək məhsulları təqdim edir. Onun əsas məqsədi çörək və un məmulatlarının tərkibini təbii saxlamaq, məhsul keyfiyyətini daim yüksək səviyyədə qorumaq və istehlakçılara ən yaxşı xidməti göstərməkdir. Çörək istehsalı sahəsində sənayedə yeni standartlar yaradılmaqla yanaşı müəssisədə müasir texnoloji xətlər qurulub, istehsal prosesində yüksək keyfiyyətli xammaldan istifadə olunur. unun seçilməsindən məhsulun satışına qədər olan hər mərhələdə keyfiyyətə ciddi nəzarət sistemi tətbiq edilir ki, bu da məhsulların təravətini və uzunömürlülüyünü təmin edir. Son illər "Sumqayıt-Çörək" ATSC-də məhsul çeşidi də genişləndirilib. Ənənəvi çörək növləri ilə yanaşı, dietik, tam buğda, müxtəlif toxum və əlavələrlə zənginləşdirilmiş sağlamlıq üçün faydalı çörək növləri də istehsal olunur. Bu yanaşma müəssisənin bazar mövqeyini möhkəmləndirməklə yanaşı, istehlakçıların müxtəlif zövqlərinə və sağlam qidalanma tələblərinə uyğun məhsullar təqdim etməyə imkan verir.

"Sumqayıt- Çörək" ATSC-nin (VÖEN 2900192171) əsas vəsaitləri də istənilən müəssisənin əsas vəsaitləri kimi, effektiv əməliyyatların vacib bir hissəsidir.

**Nəticələr və müzakirə.** Əsas vəsaitlərinin strukturu və dinamikası, eləcə də onların istifadəsinə təsir edən amillər barədə daimi, tam məlumata malik olan müəssisə, əsas vəsaitlərinin iqtisadi səmərəliliyini və istehsal gücünü artırmaq üçün metodlar, iqtisadi siyasət və strategiyalar hazırlaya bilir və bununla da istehsal xərclərini azaldır və əmək məhsuldarlığını artırır (Qrafik 1).

**Qrafik 1. Əsas vəsaitlərin tərkibinin dinamikası**




Əsas vəsaitlərin tərkibindəki dəyişiklikləri müəyyən etmək üçün "Sumqayıt -Çörək" ATSC-nin əsas vəsaitlərinin strukturu və dinamikasını təhlil etmək lazımdır (Cədvəl 1).

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1029

**Cədvəl 1. Əsas istehsal vəsaitlərinin strukturu və dinamikası**

| Əsas istehsal vəsaitlərinin növləri | 2019 | | 2020 | | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | mln.man | % | mln.man | % | mln.man | % | mln.man | % | mln.man | % |
| **Bina və qurğular** | 755588,1 | 34,50 | 760765,1 | 34,78 | 790 234 | 35,69 | 784 796,7 | 34,77 | 789 880,8 | 34.76 |
| **Maşın və mexanizmlər** | 1200814 | 54,82 | 1200814 | 54,89 | 1 247 290 | 56,33 | 1 239 397,4 | 54,90 | 1247908.6 | 54.92 |
| **Nəqliyyat vasitələri** | 219170 | 10,01 | 209920 | 9,60 | 218 037 | 9,85 | 216 637,8 | 9,60 | 217465.8 | 9.57 |
| **Digər təsərrüfat inventarları** | 14793,3 | 0,67 | 16066,33 | 0,73 | 16 506 | 0,75 | 16 811,8 | 0,73 | 16811.8 | 0.74 |
| **Cəmi** | 2190365.4 | 100 | 2187565.43 | 100 | 2213698 | 100 | 2256643.7 | 100 | 2272067 | 100 |

Cədvəl 1- in məlumatları əsas istehsal vəsaitlərinin strukturunda olan dəyişiklikləri əks etdirir. Tədqiq olunan zaman kəsiyində əsas payı maşın və mexanizmlər tutur. Bu göstərici 2023-ci il üçün 54.92% təşkil edir ki, 2019-cu illə müqayisədə 0.1% artmışdır. Nəqliyyat vasitələri isə 2019- cu illə müqayisədə 0.44% azalmışdır.

Müəssisənin davamlı fəaliyyət göstərməsi üçün əsas vəsaitlərin səmərəliliyi hər zaman diqqətdə saxlanılmalıdır. Bu yolla səmərəsiz əsas vəsaitlərin səbəbi müəyyənləşdirilərək gələcəkdə istehsal təkmilləşdirilə bilər.

Əsas vəsaitlərin təhlili onlardan istifadənin istehsal həcminə və digər göstəricilərə təsirini hesablamağa və əsas vəsaitlərdən istifadənin səmərəliliyinin yüksəldilməsi potensialını müəyyən etməyə yönəldilməlidir. Əsas istehsal fondlarından istifadənin intensivliyi və səmərəliliyinin təhlili vacibdir. Aşağıdakı göstəricilər əsas vəsaitlərin istifadəsinin intensivliyi və səmərəliliyinin ümumi göstəricisi kimi xidmət edir:

- fondverimi (istehsal olunmuş məhsulun dəyərinin əsas istehsal fondlarının orta illik dəyərinə nisbəti);
- fondtutumu (əsas istehsal fondlarının orta illik dəyərinin istehsal olunmuş məhsulun dəyərinə nisbəti) (Гудков, 2006).

Qida sənayesi müəssisələrində əsas vəsaitlərin istifadəsinin səmərəliliyinə təsir edən amilləri nəzərdən keçirək. Bunlara daxildir (Абакумов, 2016):

– Texnoloji amillər. Yeni texnologiyaların və avadanlıqların tətbiqi ilə əsas vəsaitlərin istifadəsinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırmaq, xərcləri azaltmaq və məhsulun keyfiyyətini yaxşılaşdırmaq mümkündür.

– İqtisadi amillər. Müəssisələrin investisiya qərarlarına və əsas vəsaitləri yeniləmək qabiliyyətinə inflyasiya, faiz dərəcələri, vergi siyasəti və digər iqtisadi amillər təsir göstərə bilər.

– Bazar amilləri. Rəqabət, tələb və təklif, xammal və hazır məhsulların qiymətləri kimi bazar amilləri şirkətləri öz rəqabət qabiliyyətini qorumaq üçün əsas vəsaitlərindən istifadəni yaxşılaşdırmağa stumullaşdıra bilər.

– Ətraf mühit amilləri. Ətraf mühitin qorunması və ekoloji cəhətdən təmiz texnologiyaların istifadəsinə olan tələblər avadanlıq seçiminə və istifadəsinə təsir göstərə bilər.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1029

Əsas vəsaitlərdən istifadənin səmərəliliyinin artırılması əmək məhsuldarlığının artması, əsas vəsaitlərin strukturunun təkmilləşdirilməsi, istehsal və satış həcminin artması, istehsal xərclərinin azalması və gəlirliliyin artması deməkdir .

Cədvəl 2-də əsas vəsaitlərlə təminolunma göstəricilərinin dinamikası və onlardan istifadənin səmərəliliyi araşdırılır.

**Cədvəl 2. Əsas istehsal vəsaitlərilə təmin olunma göstəriciləri və onlardan səmərəli istifadə**

| Göstəricilər | İllər | | | | | 2023/ 2019–cu illər nisbətdə,% |
|---|---|---|---|---|---|---|
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | |
| **Əsas istehsal fondlarının orta illik dəyəri, mln manatla** | 2190365.4 | 2187565.43 | 2213697.5 | 2256643.7 | 2272067 | 103.7 |
| **İstehsal olunan məhsulun dəyəri, mln manatla** | 4674202 | 4705304 | 4825174 | 4781265 | 4995146 | 106.9 |
| **Məhsulun satışından gəlir, min manatla** | 63425 | 65208 | 100530.23 | 365080 | 353558 | 557.4 |
| **İşçilərin orta illik sayı, nəfər** | 263 | 270 | 269 | 275 | 278 | 105.7 |
| **Fondverimi, man. /man.** | 2.13 | 2.15 | 2.18 | 2.12 | 2.20 | 103.3 |
| **Fondtutumu, man. /man.** | 0.47 | 0.46 | 0.46 | 0.47 | 0.45 | 95.7 |
| **Fondla silahlanma, man./adam** | 8328,4 | 8102,1 | 8229, 4 | 8206 | 8172,9 | 98.1 |
| **Fond rentabelliyi,%** | 2.89 | 2.98 | 4.54 | 16.2 | 15.6 | +12.71 |

Cədvəl 2-dəki məlumatların təhlili bizə müəssisənin əsas vəsaitlərinin vəziyyətində və onlardan daha səmərəli istifadədə bütün göstəricilər üzrə müsbət bir tendensiyanın müşahidə olunduğu qənaətinə gəlməyə imkan verir. Cədvəldəki hesablamalara əsasən belə bir nəticəyə gəlirik ki, əsas istehsal fondlarının orta illik dəyərinin 3,7 % artımı müəssisənin maddi-texniki bazasının yenilənməsini göstərir. Təhlil edilən dövrdə işçilərin orta illik sayı 5,7% artması, işçi heyətinin genişlənməsini (sabitləşməsini) göstərir. İstehsal olunan məhsulun dəyəri 4674202 mln. manatdan 4995146 mln. manata çatmışdır ki, buradakı 6.9 % artım istehsal potensialının və əməliyyat səmərəliliyinin artdığını göstərir.

Qeyd etmək lazımdır ki, hesabat ilində kecən ilə nisbətən fondverimi gostəricisinin yuxarıya, fondtutumunun aşağıya doğru meyli musbət və ya istehsal fondlarından səmərəli istifadə edildiyini, fondveriminin aşağıya fondtutumunun yuxarıya doğru meyli və əksinə onlardan istifadənin səmərəliliyi səviyyəsinin aşağı duşməsini və ya qeyri-məhsuldar istifadəni xarakterizə edir.

2023-cü ildə fondverimi 0.07 manat artıb ki, bu da əsas vəsaitlərin manatına daha çox məhsul istehsal edildiyi üçün əsas vəsaitlərdən daha çox səmərəli istifadə olunmağa başladığını göstərir.

Fondtutumunun 0.47 manatdan 0.45 manata qədər azalması (- 0.02%) müsbət hal hesab olunur, çünki bir məhsul vahidi istehsal etmək üçün daha az əsas vəsait tələb olunur.Məlum olduğu

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1029

kimi əgər fondtutumunun son həddi vahiddən kiçikdirsə, deməli əsas istehsal fondlarından səmərəli istifadə edilmişdir və istehsal guclərindən istifadə əmsalı da artmışdır.

Fond rentabelliyi 2.89 % -dən 15.6% -ə qədər qalxaraq, 12.71 faiz bəndi artmışdır ki, bu da əsas vəsaitlərin istifadəsinin gəlirliliyini göstərir.

Qida sənayesi müəssisələrinin aktivlərinin xeyli miqdarını dövriyyə vəsaitləri təşkil etdiyinə görə onlardan səmərəli istifadə etmək həmin müəssisələrin əsas vəzifəsini təşkil edir.

Dövriyyə vəsaitləri müəssisənin aktivlərinin dövriyyə müddəti bir ildən az olan hissəsi olub, davamlı fəaliyyəti təmin etmək, yəni məhsulların istehsalı və satışı üçün vacib bir mənbə hesab olunur (Mahmudov və b., 2003) .

Dövriyyə vəsaitlərinə tələbat müəyyən edilərkən bir neçə vacib amil nəzərə alınmalıdır.

1. Dövriyyə vəsaitlərinin çatışmazlığı istehsal prosesində fasilələrə səbəb ola bilər.

2. Satışdan daxil olan gəlir çox vaxt məhsulun göndərilmə vaxtı və yeni istehsal dövrünün başlanğıcı ilə üst-üstə düşmür. Bu şəraitdə müəssisə əvvəlki dövrün bitməsini gözləmədən yeni dövrün başlamasına imkan verəcək dövriyyə vəsaitləri ayırmalıdır.

Dövriyyə vəsaitlərinin strukturunun sabitliyi məhsulların (işlərin, xidmətlərin) istehsalı və satışının davamlı, yaxşı təşkil olunmasının, əhəmiyyətli struktur dəyişiklikləri isə müəssisənin qeyri-sabit fəaliyyətinin əlamətidir. Əməliyyatların fasiləsizliyini təmin etmək üçün qida sənayesi müəssisəsi dövriyyə vəsaitlərinə həm dövriyyə aktivlərini formalaşdırmaq, həm istehsal, kommersiya və inzibati xərclərini ödəmək, həm də müəssisədaxili bütün xidməti təsərrüfatını maliyyələşdirmək üçün ehtiyac duyur (Шеремет, 2008).

“Sumqayıt – Çörək” ATSC-nin dövriyyə vəsaitləri cari istehsal və kommersiya fəaliyyətinə xidmət edən və bir istehsal dövrü ərzində tamamilə istehlak edilən müəssisənin aktivlərinin məcmusudur. (Cədvəl 3)

**Cədvəl 3. “Sumqayıt – Çörək” ATSC-nin dövriyyə vəsaitlərinin tərkibi və dinamikası**

| **Dövriyyə vəsaitlərinin növləri** | **İllər** | | | | | | | | | | **2023-cü il / 2019-cu il** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2019** | | **2020** | | **2021** | | **2022** | | **2023** | | |
| | **Min man.** | **Dövriyyə vəsaitlərinin cəminə nisbətdə, %** | **Min man.** | **Dövriyyə vəsaitlərinin cəminə nisbətdə, %** | **Min man.** | **Dövriyyə vəsaitlərinin cəminə nisbətdə, %** | **Min man.** | **Dövriyyə vəsaitlərinin cəminə nisbətdə, %** | **Min man.** | **Dövriyyə vəsaitlərinin cəminə nisbətdə, %** | |
| **1** | **2** | **3** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **İstehsal ehtiyatları** | 497178 | 78.3 | 462315 | 97.3 | 189042 | 87.4 | 112007 | 43.6 | 154280 | 74.3 | 31.03 |
| **Qısamüddətli debitor borcları** | 116740 | 18.4 | 0 | 0 | 6360 | 2.94 | 0 | 0 | 0 | 0 | 0 |
| **Kassa və hesablaşma hesabındakı pul vəsaitləri** | 21215 | 3.34 | 12946 | 2.72 | 20992 | 9.7 | 144895 | 56.4 | 53478 | 25.7 | 252.07 |

| Cəmi dövriyyə vəsaitləri | 635133 | 100 | 475261 | 100 | 216394 | 100 | 256902 | 100 | 207758 | 100 | 32.71 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|

"Sumqayıt – Çörək" ATSC-nin dövriyyə vəsaitlərinin tərkibi və strukturunun təhlili göstərir ki, dövriyyə vəsaitlərinin dəyəri 2019-cü ildən 2023-cü ilə qədər üç dəfə azalmışdır ki, bu da ehtiyatların üç dəfə azalması və debitor borclarının olmaması ilə əlaqədardır. İstehsal ehtiyatları dövriyyə kapitalının ən böyük hissəsini (74.3 %) təşkil etmişdir. Istehsal ehtiyatlarının payının artmasına baxmayaraq, hesabat ilinin 12 ayı ərzində ödənilməli olan debitor borclarının miqdarı və payı azalmışdır. Pul vəsaitlərinin miqdarı 2019- cu illə müqayisədə 32263 min manat artmışdır, 2022- ci illə müqayisədə isə 91417 min manat azalmışdır. Bütün bunlar dövriyyə kapitalının mövcudluğuna və istifadəsinin səmərəliliyinə təsir göstərir.

Beləliklə, "Sumqayıt – Çörək" ATSC-nin dövriyyə vəsaitləri haqqında aparılan təlil nəticəsində məlum olur ki, mal-material və pul ehtiyatlarında müşahidə olunan dəyişikliklər dinamikadakı sabitliyi, debitor borclarının miqdarı və payının azalması isə müəssisənin istehsal gücündən maksimum istifadəsini göstərir.

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.** Hal-hazırda qida sənayesi müəssisələrində ən əhəmiyyətli problem istehsal gücünün tam istifadə edilməməsi və avadanlıqların köhnəlməsi sayılır. Əsas vəsaitlərin köhnəlməsi əməliyyat xərclərinin və qiymətlərin artmasına səbəb olur ki, bu da müəssisənin qiymət siyasətinə təsir edir. Qida müəssisələrinin avadanlıqlarının həddindən artıq bahalı olması səbəbindən müəssisə əsas vəsaitləri yeniləmək üçün maliyyə vəsaiti toplaya bilmir. Lakin maddi-texniki bazanın innovativ modernləşdirilməsi olmadan mal və xidmət istehsalı xərclərini azaltmaq, qiymət artımlarını və inflyasiyanı dayandırmaq mümkün deyil. İstehsal gücünün aşağı istifadəsi də istehsal potensialının tam istifadəsinə mane olduğuna görə avadanlıqların tam istifadəsinə imkan verən dövriyyə vəsaitlərinin idarə edilməsi siyasətinin işlənib hazırlanması zəruridir.

Bütün bu şərtləri nəzərə alaraq, "Sumqayıt – Çörək" ATSC- də əsas və dövriyyə vəsaitlərindən istifadənin iqtisadi əmərəliliyini artırmaq üçün aşağıdakı tədbirlər həyata keçirilə bilər:

- ✓ Məhdud resurslar və artan rəqabət şəraitində müəssisə əsas vəsaitlərindən istifadəni optimallaşdırmaqla məhsuldarlığı artırmağa və xərcləri azaltmağa müvəffəq olar;
- ✓ Avadanlıqları modernləşdirmək və təkmilləşdirilməklə məhsuldarlığın artırılmasına, enerji istehlakının azaldılmasına və məhsulların keyfiyyətinin yaxşılaşdırılmasına nail ola bilər;
- ✓ Yeni texnologiyaların tətbiqi və proseslərin avtomatlaşdırılması vasitəsilə istehsal xərclərini azalda və məhsulların keyfiyyətini yaxşılaşdıra bilər;
- ✓ Avadanlıqların xidmət müddətini uzatmaq və təmir xərclərini azaltmaq üçün müntəzəm texniki xidmət və təmir işləri həyata keçirilə bilər;
- ✓ Dövriyyə vəsaitlərinin səmərəli idarə edilməsi haqqında siyasət işləyib hazırlamaqla dövriyyə kapitalının dövriyyə sürətini artıra bilər ki, bu da maliyyə sabitliyinə gətirib çıxara bilər.
- ✓ Əlverişli şərtlərlə əlavə maliyyə vəsaitləri cəlb edərək müəssisə həm lazımi həcmdə, tərkibdə və quruluşda dövriyyə aktivlərini formalaşdıra bilər, həm də əsas fondlarını təkmilləşdirər və ya yeniləyər.
- ✓ İşin keyfiyyətini yaxşılaşdırmaq üçün işçi heyətinin əsas vəsaitlərdən daha səmərəli istifadə etməsi üçün onların təlimlərə cəlb olunmasını və peşəkar inkişafını təmin edə

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1029

bilər;

- ✓ İstehsal proseslərini sadələşdirməklə, avadanlıqların dayanma müddətini azaltmaqla, logistika və inventar idarəetməsini təkmilləşdirməklə istehsalın və əməyin təşkilini təkmilləşdirə bilər.

Təklif olunan tədbirlər müəssisənin əsas və dövriyyə kapitalının optimallaşdırılmasına töhfə verəcək və onlardan istifadənin səmərəliliyinə müsbət təsir göstərəcəkdir.

## ƏDƏBIYYAT:

1. Quliyev T. F, Qurbanov F. Q.,. Abbasov A.Q,. Babayev A A. “Bazar münasibətləri şəraitində müəssisə və firmaların maliyyə fəaliyyətinin təhlili və qiymətləndirilməsi” . Bakı - 2002. 60 s.
2. Mahmudov İ.M., Zeynalov T.Ş., Quliyev F.M. "İQTİSADİ TƏHLİL”, Bakı-2003.492 s.
3. Абакумов Р.Г. Методология исследования факторов, влияющих на воспроизводство основных средств // Вестник БГТУ имени В. Г. Шухова. 2016. №4.
4. Анисимов Ю. Оценка эффективности использования оборотного капитала // Риск: ресурсы, информацня, снабжение, конкуренция. 2011. № 2. С. 446-449.
5. Бланк, И.А. Управление использованием капитала [Текст] / И.А. Бланк. – М.: Омега-Л, 2008. – 652 с.
6. Гудков. С. В. Развитие методик учета, отчетности и анализа деятельности крестьянских (фермерских) хозяйств / С. В. Гудков. Е. А. Гудкова. - Минск: Право и экономика. 2006,- 157 с.
7. Мосин В.Г., Щербаков В. А. Основы внешней оценки производственно-хозяйственной деятельности предприятия: Учебное пособие. - Новосибирск: НГАСУ, 1998. - 70 с.
8. Щербаков В. А., Щербакова Н. А. Щ .Оценка стоимости предприятий (бизнеса): Учеб. пособие. – Новосибирск: НГТУ, 2003. – 71 с.
9. Шеремет А.Д. Комплексный анализ хозяйственной деятельности: учебник. – М.: ИНФРА-М, 2008. – 415 с.
10.Юдичева, Е. Ю. Оценка и пути повышения эффективности использования оборотных активов / Е.Ю. Юдичева, Н.Ю. Кожанчикова // Молодой ученый. – 2019. – №12.5. – С. 89-91.
11. Янкова, В. Ф. Эффективность использования оборотных средств предприятия / В.Ф.Янкова // Молодой ученый. — 2018. — №28. — С. 608-611.

## CURRENT STATUS OF FIXED AND WORKING CAPITAL FUNDS AND THE ECONOMIC EFFICIENCY OF THEIR USE

## ABSTRACT

**Purpose of the Research** – is to study the general indicators of the intensity and efficiency of the use of fixed assets, which are the basis of the production process and the material and technical base of food industry enterprises, their structure and dynamics, and the use of fixed and circulating assets.
**Methodology of the Research** – – A systematic approach, comparison, and economic and statistical analysis methods were used in the research process. At the same time, comparisons were made based on the indicators obtained from the enterprise.
**Practical Significance of the Research** – The development of the food industry in Azerbaijan, its transformation into a profitable sector of the economy is the main factor in ensuring the country's food security,

and this development affects the interests of the entire economic system of the state. The effective use of production potential is of great importance for the effective operation of food industry enterprises in ensuring the country's economic security and improving the standard of living of the population.
**Results of the Research** – The author has made a number of calculations for the indicators of provision of fixed assets and their effective use, which allows for a reliable assessment of their efficiency. In addition to fixed assets, the study also analyzed circulating assets, their importance, composition, and structure.
**Scientific Innovation of the Research**– The research work substantiated the importance of increasing the efficiency of the use of fixed and circulating assets in food industry enterprises, drew relevant conclusions and provided recommendations for future development.
**Keywords**: fixed assets, capital intensity, return on assets, working capital, economic efficiency.

# ТЕКУЩЕЕ СОСТОЯНИЕ ФОНДОВ ОСНОВНОГО И ОБОРОТНОГО КАПИТАЛА И ЭКОНОМИЧЕСКАЯ ЭФФЕКТИВНОСТЬ ИХ ИСПОЛЬЗОВАНИЯ.

## РЕЗЮМЕ

**Цель исследования** – изучение общих показателей интенсивности и эффективности использования основных средств, являющихся основой производственного процесса и материально-технической базы предприятий пищевой промышленности, их структуры и динамики, а также использования основных и оборотных активов.
**Методология исследования** – в процессе исследования использовались систематический подход, сравнительный и экономико-статистический методы анализа. При этом сравнения проводились на основе показателей, полученных от предприятий.
**Практическое значение исследования** – развитие пищевой промышленности в Азербайджане, ее трансформация в прибыльный сектор экономики является основным фактором обеспечения продовольственной безопасности страны, и это развитие затрагивает интересы всей экономической системы государства. Эффективное использование производственного потенциала имеет большое значение для эффективной работы предприятий пищевой промышленности в обеспечении экономической безопасности страны и повышении уровня жизни населения.
**Результаты исследования** – автор выполнил ряд расчетов показателей обеспечения основных средств и их эффективного использования, что позволяет достоверно оценить их эффективность. Помимо основных средств, в исследовании также анализировались оборотные активы, их значение, состав и структура.
**Научная новизна исследования** – в работе обоснована важность повышения эффективности использования основных и оборотных активов на предприятиях пищевой промышленности, сделаны соответствующие выводы и даны рекомендации для дальнейшего развития.
**Ключевые слова:** основные средства, фондоемкость, фондоотдача, оборотный капитал, экономическая эффективность.

*Məqalə daxil olmuşdur: 07.02.2026*
*Təkrar işləməyə göndərilmişdir: 16.02.2026*
*Çapa qəbul edilmişdir: 26.02.2026*

*Дата поступления статьи в редакцию: 07.02.2026*
*Отправлено на повторную обработку: 16.02.2026*
*Принято к печати: 26.02.2026*

*The date of the admission of the article to the editorial office: 07.02.2026*
*Send for reprocessing: 16.02.2026*
*Accepted for publication: 26.02.2026*